## *TANRI  MÖCÜZƏSİ*

Göz açdı dünyaya
May səhərində,
İki göz işığı böyüdü dünya.
Günəşə göstərdi
Qoşa ovcunda,
Onu bu gidi dünya.

Taleyinə bəxş etdi
Dağlar - əzəmətini.
Çinar – şah qamətini.
Dənizlər – gövhərini,
Düzlər – cilvələrini.

Yurdumuzda dünya qurub
Hər işdə qalib çıxdı.
Aləm gördü – bu azman
Təpədən dırnağacan
Ulduz-ulduz işıqdı!

Yatan torpaqlar ayıldı,
Mürgülü bağlar ayıldı,
Budaqlarda bar ayıldı,
Bu insanın işığına.

Allahdan qismət vardı,
Sənə, mənə iftixardı.
İşıqlar həsəd apardı,
Bu insanın işığına.

Dağ dağları aşıb gəldi,
Ay göyü dolaşıb gəldi.
Milyonlar yığışıb gəldi,

Bir insanın işığına.

Könlündəki işıq endi,
Hər ürəkdə, evdə yandı.
Azərbaycanım boylandı
Heydər Ata işığına.

Sıxıldı
Əyilmədi.
Yaya döndü,
Sınmadı,
Ox oldu,
əyilmədi.
Qalxdı,
yeridi,
durdu!
Bu planetin nuru
Zülmətləri uçurdu!
Tanrı möcüzəsidi,
Hər səhər
Günəşin çıxması kimi.
Qızılı şəfəqlərin
Yerin damarına
Axması kimi.

Neyləməli həyatın
Əzəli qanunu var.
Hər ömrün sonu –
məzar...

Baxın təsəlli verir
Anamız Yer Kürəsi

Onu sevən millətə,
Qaldırıb çiyni üstə
Bu nəhəng planeti
Gedir Əbədiyyətə...

***Ramiz Məmmədzadə***

***Günəşə qovuşmaq istəyirəm mən! – B.: Çinar-Çap, 2008. – S.14-15.***